# İranın pilotsuz uçuş aparatı Naxçıvanda orta məktəb binasını hədəfə alıb



Texniki vasitələrlə təsbit edilib ki, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən dörd ədəd pilotsuz uçuş aparatı Azərbaycanın Naxçıvan bölgəsinə doğru hücum aktlarını törətmək üçün yönləndirilib, onlardan biri Azərbaycan Ordusu tərəfindən sıradan çıxarılıb, digərləri isə mülki infrastrukturu, o cümlədən dərs saatlarında orta məktəb binasını hədəfə alıb. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən bildirilib.

Məlumatda həmçinin qeyd olunub: "Orta məktəb binasını hədəfə alan pilotsuz uçuş aparatı xoşbəxtlikdən hədəfə yetişməyib, məktəbin yaxınlığında yerə çırpılaraq partlayıb".

Azərbaycan. - 2026.- 6 mart (№43).- S.2.